## *BAŞ REDAKTORDAN*
## *AİLƏ PEDAQOGİKASI*

UOT 37.

***Akif Nurağa oğlu Abbasov***
*pedaqogika üzrə elmlər doktoru, professor*
*Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi*

# AİLƏDƏ DAVRANIŞ QAYDALARI: QAYINANA-GƏLİN MÜNASİBƏTLƏRİ

***Акиф Нурага оглу Аббасов***
*доктор наук по педагогике, профессор,*
*ученый секретарь Института Образования Азербайджанской Республики*

# ПРАВИЛА ПОВЕДЕНИЯ В СЕМЬЕ: ОТНОШЕНИЯ СВЕКРОВИ И НЕВЕСТКИ

***Akif Nuragha Abbasov,***
*doctor of sciences in pedagogy, professor*
*scientific secretary of the Institute of Education of the Republic of Azerbaijan*

# FAMILY RULES: RELATIONS IN-LAW AND DAUGHTER-IN-LAW

**Xülasə.** Ailənin mənəvi həyatında qayınana, qayınata, baldız, bəy və gəlinin digər yaxın qohumları mühüm rol oynayır. Onlar nəinki ər və arvadın münasibətlərinə təsir göstərir, bəzən gənc ailənin taleyində dönüş yaradırlar.

Azərbaycanda gəlinini öz övladı kimi sevən, ona qayğı göstərən, ağıllı məsləhətləri və konkret işi ilə köməyində duran (nəvələrin sağlam böyüməl期ərində, dərslərini hazırlamaqda, məktəbə, uşaq bağçasına aparıb-gətirməkdə və s.) çoxsaylı qayınanalar vardır. Övladının gəlini ilə xoşbəxt yaşadığını görən oğul anası buna görə sevinir, fərəh hissi keçirir, gəlininin ləyaqətli, ailəcanlı, qayğıkeş, mərifətli, qanacaqlı, nəzakətli olmasından qürur hissi keçirir.

Bəzi qayınanalar isə, sanki oğullarını gəlinə qısqanırlar. Onlara elə gəlir ki, oğlu ona olan sevgini azaldıb, yarısını, bəlkə də yarıdan çoxunu cavan xanımına pay verib. Bu hiss onu gəlinə qarşı kökləyir.

Məqalədə “Ailə pedaqogikası”nın ümumi məsələlərindən biri olan qayınana-gəlin münasibətləri üzərində geniş şəkildə dayanılır.

***Açar sözlər:*** *davranış qaydaları, ailədə davranış qaydaları, qayınana, gəlin, qayınana-gəlin münasibətləri*

**Резюме.** В духовной жизни семьи важную роль играют свекровь, тесть, золовка и другие родственники жениха и невесты. Они не только влияют на отношения между супругами, но и порой создают поворотный момент в судьбе молодой семьи. В Азербайджане многие свекрови любят невестку как дочь и заботятся о ней как о своем собственном ребенке, поддерживают ее мудрыми советами и конкретной работой (воспитание внуков, помощь в подготовке уроков, провожают детей в школу, детский сад и т.д.). Видя, что ее сын счастлив с невесткой, мать радуется и гордится тем, что ее невеста достойная, заботливая, воспитанная и вежливая.

Некоторые свекрови ревнуют сыновей к невесткам. Им кажется, что их любовь сына к ней уменьшилась и сейчас он больше всего любит молодую жену. Это чувство настраивает ее по отношению к невестке.

В статье широко рассматривается один из общих вопросов «Семейной педагогики» - взаимоотношения свекрови и невестки.

***Ключевые слова:*** *правила поведения, правила поведения в семье, свекровь, невестка, отношения свекрови и невестки*

**Summary.** An important role in the spiritual life of the family is played by the mother-in-law, father-in-law, sister-in-law and other relatives of the bride and groom. They not only affect the relationship between spouses, but sometimes create a turning point in the fate of a young family. In Azerbaijan, many mothers-in-law love the daughter-in-law as a daughter and take care of her as her own child, support her with wise advice and concrete work (raising grandchildren, helping with the preparation of lessons, escorting children to school, kindergarten, etc.). Seeing that her son is happy with her daughter-in-law, her mother is happy and proud that her bride is dignified, caring, well-mannered and polite.

Some mother-in-law are jealous of sons for their daughter-in-law. It seems to them that their son's love for her has decreased and now he loves his young wife most of all. This feeling sets her in relation to her daughter-in-law.

The article widely discusses one of the general issues of "Family Pedagogy" - the relationship between mother-in-law and daughter-in-law.

***Keywords**: rules of conduct, rules of conduct in the family, mother-in-law, daughter-in-law, relations of mother-in-law and daughter-in-law*

Ailənin mənəvi həyatında qayınana, qayınata, baldız, bəy və gəlinin digər yaxın qohumları mühüm rol oynayır. Onlar nəinki ər və arvadın münasibətlərinə təsir göstərir, bəzən gənc ailənin taleyində dönüş yaradırlar.

Azərbaycanda gəlinini öz övladı kimi sevən, ona qayğı göstərən, ağıllı məsləhətləri və konkret işi ilə köməyində duran (nəvələrin sağlam böyüməlerində, dərslərini hazırlamaqda, məktəbə, uşaq bağçasına aparıb-gətirməkdə və s.) çoxsaylı qayınanalar vardır. Övladının gəlini ilə xoşbəxt yaşadığını görən oğul anası buna görə sevinir, fərəh hissi keçirir, gəlininin ləyaqətli, ailəcanlı, qayğıkeş, mərifətli, qanacaqlı, nəzakətli olmasından qürur hissi keçirir.

Bəzi qayınanalar isə, sanki oğullarını gəlinə qısqanırlar. Onlara elə gəlir ki, oğlu ona olan sevgini azaldıb, yarısını, bəlkə də yarıdan çoxunu cavan xanımına pay verib. Bu hiss onu gəlinə qarşı kökləyir.

Vaxtilə və indi də çox vaxt evin oğul evlənəndə gəlin onun ata evinə gətirilir. Ailənin həyət evi varsa, otaqlardan birində, çoxmərtəbəli binada yaşayırlarsa, yenə də mənzildəki otaqların birində evlənənlərə yer ayrılır. Bir qazan asılır, iki ailə - ata ailəsi və təzə qurulmuş ailə bir stolun başına yığışırlar. Gəlin mətbəxdə biş-düşdə, otaqların səliqəyə salınmasında, süfrənin açılmasında və yığışdırılmasında, qabların, paltarın yuyulmasında qayınanaya kömək edir, yaxud bəzi işləri təkbaşına görməli olur. Bütün bunların yerinə yetirilməsi zamanı bəzən narazılıq yaranır, qayınana nəyisə bəyənmir, deyinir, gəlinə acı söz deyir. Və yaxud gəlin nədənsə narazı qalır, söz götürmür, qayınananın tələblərindən sinirlənir. Gəlin razılaşaq ki, mətbəx iki qadınçın yox, bir qadınçındır. Mətbəx iki qadının burada dolanmasını, var-gəl etməsini, tör-töküntü yaratmasını xoşlamır, onların deyinməsindən acığı gəlir.

Qayınana və gəlinin bir-biri ilə dolanmaması, dil tapmaması ailənin mənəvi və psixoloji atmosferini korlayan məsələlərdən biridir. Qayınanaların gənc ailələrin işlərinə yerli-yersiz qarışmalarını, oğlunu (qızını) təsiri altına alıb öz iradələrini yeritmələri ailə həyatını çətinləşdirir, bəzən hətta dözülməz edir.

Gənc ailələrin ayrıca mənzilləri olarsa, yolagəlməz qayınanaların təsiri də zəifləyər, qayınana-gəlin münasibətləri bir qədər ağrısız-acısız ötüşər.

Ailə quran qız düşdüyü evdə gəlin adlanır. Ailənin digər ərli qadın üzvü, yaxud üzvləri də "gəlin" hesab olunurlar. Oğullarının həyat yoldaşları qayınata və qayınana üçün bütün həyatları boyu gəlindirlər.

"Gəlin" sözü Azərbaycan dilindəki "gəlmək" felindəndir. Milli adət və ənənələrimizdə tarixən gəlinə xüsusi münasibətlər sistemi formalaşmışdır və bu gün də bu mədəniyyət mühafizə olunaraq saxlanılır. Toy mərasimindən sonra gəlin eyni zamanda "həyat yoldaşı", yaxud "arvad"; qızın nikah ittifaqına girdiyi oğlan toy mərasimində "bəy", sonradan isə "ər" və ya "həyat yoldaşı" adlanır.

Gəlin-qayınana davası əsrlər boyu az qala ailənin əsas problemlərindən birinə çevrilib.

Qız gec-tez gəlin köçməlidir. O, gələcək müstəqil ailə həyatına – başqasının ailəsinin daxilində yaşamağa hazırlanmalıdır. Respublikamızda qayınanasına öz doğma anası kimi qayğı göstərən, onun hörmətini saxlayan gəlinlər min-

lərlədir. Lakin ailədə gəlin-qayınana problemi çox vaxt həll edilməmiş qalır. Bu iki qadından hansının daha çox günahkar olduğunu aşkara çıxarmağa cəhd göstərməyə, bizcə, ehtiyac yoxdur. Ailə sözsüz, söhbətsiz, mübahisəsiz olmur. Lakin bu münaqişəni şişirtmək, yaymaq doğru deyildir. Qız ərinin anasını qayınana kimi yox, bir ana kimi qəbul etməlidir. Evdə hansımıza anamız acıqlanmır, bu və ya digər məsələ ilə əlaqədar irad tutmur və yaxud danlamır. Bəzən anamızdan incisək də, bunu dərhal unuduruq.

Ər evində isə vəziyyət başqadır. Qayınana gəlinə irad tutanda, ona acıqlananda gəlin uzun müddət bunu yadından çıxarmır, kin-küdurət saxlayır, hətta müəyyən müddətdən sonra onun üzünə qayıdır. Həyat yoldaşına anasından şikayətlənir, onu anasına qarşı qaldırır. Qayınananı ana gözündə görəndə isə, gəlin onun sözlərindən incimir, səhvini düzəltməyə çalışır, bəzən hətta zarafata salır. Yaxud qayınanasının əsəbiləşdiyini və buna görə də onu yersiz acıladığını başa düşüb güzəştə gedir.

Körpənin həyata gəlməsi ilə ananın ən böyük arzuları da doğulur: oğul toyu görmək, qız köçürmək, qayınana olmaq! Ananın arzu və istəkləri bir-birini ardınca həyata keçir. Nəhayət, o, qayınana olur. Bu vəzifə ona nə bəxş edir? Sevinc, yoxsa kədər? Deyirlər, bəxtinə pis kürəkən çıxsa – qızını itirərsən, pis gəlin çıxsa – oğlunu. Bu sözlərdə dərin hikmət var.

Gəlin və qayınanalarla apardığımız sorğularımız nəticəsində məlum olmuşdur ki, onlar arasında ixtilaflar bir sıra səbəb üzündən baş verir. Belə ki qayınanalar gəlinlərində müşahidə etdikləri aşağıdakı halları göstərmişlər:

1. Diqqətsizlik. Gəlin bayramlarda öz anasına hədiyyələr alır, lakin evin içində qayınanasını bir dəstə güllə, yaxud şirin dillə təbrik etmir.

2. Hörmətsizlik. Gəlin qayınananın yanında uşağına acıqlanır, bu vaxt (yaxud əri ilə sözləşəndə) kobud danışır.

3. Saymamazlıq. Gəlin ərinin qohumlarını saymır. Uzaq bir qohumunun ad gününə təmtəraqla gedir, ərinin yaxın qohumunun toyunu isə saya salmır.

4. Tənbəllik. Gəlin vaxtında yataqdan qalxmır, ev-eşiyi, həyət-bacanı süpürüb, səliqəyə salmır.

5. Boşboğazlıq. Evin sirrini qohum-qonşu arasında yayır. O, bir çox ailələrdə möhkəm qərar tutmuş "Söz var el içində, söz var ev içində", "Ev bizim, sirr bizim" hikmətini pozur, beləliklə, ailənin şərəfini unudur.

6. Böyüyün sözünü yerə salmaq. Qayınana gəlinə nədəsə ona kömək göstəreməyi xahiş edir. O isə bəhanə gətirir. Halbuki əlində heç bir işi yoxdur.

7. Moda, qaş-daş hərisi olmaq. Gəlin ərinin qazancını ənliyə-kirşana verir, əvəzində qayınatadan, qayınanadan maddi kömək umur.

8. Ərin iş və istirahət qayğılarına biganə olmaq. Gənc ər evə gec gələndə gəlin yersiz hay-küy qaldırır, ailənin digər üzvlərini də narahat edir.

9. Evdarlığa dair sadə vərdişlərə yiyələnməmək. Gəlin nəinki mətbəx işlərini bacarmır, üstəlik öyrənməyə də cəhd göstərmir, qab-qacağı ərinə yudurtmağa çalışır.

10. Xudpəsəndlik. Gəlin qayınanaya yuxarıdan aşağı baxır, onun gördüyü işləri xəlvəti məsxərəyə qoyur.

11. Ailədə mənəmlik iddiasında olmaq. Gəlin evdə özünü hökmlü aparır, hamının onunla məsləhətləşməsini istəyir, dediyi olmayanda ortaya narazılıq salır, nəzərdə tutulmuş tədbiri pozmaqla qanıqaralıq yaradır.

12. Gəlinin yüngülxasiyyətliyi. Yersiz hərəkətlərə yol verir, danışığına, sözünə sərhəd qoymur.

13. Gəlində müsahibini dinləmək bacarığının və onu başa düşmək arzusunun olmaması. O, adamın hisslərinə biganə münasibət bəsləyir, ürəyi yanmır, dərdinə şərik olmur və s. və i.a.

Gəlinlər də qayınanalarda özünü büruzə verən aşağıdakı halların dözülməz olduğunu göstərmişlər:

1. Qayınanalar onları öz qızları kimi deyil, "yad" qızı kimi qəbul edirlər.

2. Həddindən artıq tələbkarlıq göstərirlər, bəzən bu tələbkarlığın arxasında əslində gəlinə qarşı olan kin-küdurət, acıq, nəyinsə əvəzini, acığını çıxmaq və s. gizlənir.

3. Qayınanalar deyingənliyə adətkərdadırlar. Hər şeyi söz edirlər.

4. Gəlinləri həddindən artıq ucuz tutur, onlarla heç cür hesablaşmırlar.

5. Köhnəpərəsdirlər. Keçmişin qalıqlarını mühafizə edirlər, modanın, yeniliyin düşmənidirlər.

6. Gəlinlərini hər vəchlə öz iradələrinə tabe etməyə çalışırlar.

7. Müəyyən məsələnin həllində gəlinləri ilə məsləhətləşmir, onların rəyini öyrənməyi lazım bilmirlər.

8. Qayınanalar yerli-yersiz ailənin daxili işinə qarışır, oğlu ilə gəlini arasında soyuqluq yaradırlar.

9. Gəlinləri başa düşmək, onun həyatda təcrübəsizliyini nəzərə almaq istəmirlər.

10. Gəlini ilə oğlu mehriban və səmimi olanda sanki bu, qayınanada qısqanclıq hissi oyadır. O, oğlunun daha çox onu sevməsini istəyir.

11. Qayınana qohumların, qonşuların yanında gəlinin ardınca danışır.

12. Qayınana baldıza imkan verir ki, gəlinlə kobud rəftar etsin və s. və i.a..

Azərbaycan ədəbiyyatında həm müsbət, həm də mənfi qayınana obrazları yaradılmışdır. Mirzə İbrahimovun "Böyük dayaq" romanındakı Səkinə xala (Mayaya münasibətdə) - müsbət surət, Məcid Şamxalovun məşhur "Qayınana" pyesindəki Cənnət xala (Afətə münasibətdə) - ailədə bir sıra problemlər yaradan qayınana obrazdır.

Rüstəm kişi oğluna təmtəraqlı toy etmək, məclisə rayonun adlı-sanlı adamlarını, çağırmaq "karvan kimi dal-dala düzülən "Pobeda"larda gəlini gətirmək" arzusundadır. Fəqət Qaraş təhsilin başa vurub evə dönəndə sevdiyi qızı da özü ilə evə gətirir. Rüstəm kişi bundan çox narazı qalır: "Rüstəm kişi bir məsələni həll edə bilmirdi. Gəlini gözlənilmədən, toysuz-filansız çəkib gətirdiyi üçün Qaraşa nə desin – danlasın, yoxsa heç üstünü vurmasın? Əlbəttə, ürəyində dərin bir etiraz vardı. Atalıq qüruru, evlənməyə bu cür yüngül münasibət onu darıxdırırdı. Kim isə lap ciyərinə biz batırıb soruşurdu: "Bu nə işdir, ay Rüstəm kişi? Belə də evlənmək olar? Belə də arvad olar? Salaməleyküm, əleykəssalam, düş qabağıma gedək. Oğuldan sənin muradın bu idimi? Hələ gözlə, sənin bu ocağına namussuzluq ləkəsi yaxmasınlar! Doğrudur, Mayanım üzündə və gğzlərində heç bir biclik, sırtıqlıq və ya bayağılıq yox idi. Əksinə, bir uşaq qədər sadə, səmimi və təmiz görünürdü. Bu munis və mehriban gözlər belə Rüstəm kişinin ürəyini sakit etmirdi, daxilində fırtına kimi coşan narazılığı yatıra bilmirdi. Necə də yatıra bilərdi?! Maya Rüstəm kişinin çoxdan alışdığı, qanına, iliyinə işləmiş adət və təsəvvürləri tapdalamışdı. Qızın elçisiz, sorğusuz-sualsız qoşulub gəlməsi sərsəmlikdir, ağılsızlıqdır. Belə qızın üzü açılanda nələr etməz? Maya bir də ona görə Rüstəm kişinin qəzəbini coşdururdu ki, evində yetişmiş Pərşan vardı. Sabah Pərşan da onun kimi birisinə qoşulub qaçmaq fikrinə düşməyəcəkdimi? Bəs bu qızın atası-anası yoxdurmu? Göbələk kimi yerdən ki, bitməyib?" (2, s. 48-49).

Səkinə isə, gəlini xoş və gülərüz qarşılayır. Fikirləşir ki, Qaraş düz edib, səhv edib, ancaq artıq gəlini toysuz-filansız götürüb gəlib, həm də qız atasız-anasızdır, valideynləri dünyalarını dəyişiblər. Qəlbi qırıqdır.

"Böyük dayaq" romanına müraciət edək: "Səkinə gəlini başdan-ayağa süzdü və bütün üzünü, hətta boğazının altını da işıqlandıran təbəssümlə gülümsədi: gəlin ananın xoşuna gəlmişdi. ...Maya tanımadığı və bu andan həyatı həyatları ilə bağlanan üç nəfərin (*Qaraşın atası Rüstəm kişi, anası Səkinə və bacısı Pərişan - A.A.*) diqqətli baxışları altında qızarmağa başladı. Nədənsə, Səkinənin ona yazığı gəldi, tez yaxınlaşdı, boynunu qucaqlayıb öpdü:

- Xoş gəlmisən, bala! Qədəmlərin xoş olsun! – deyib noxudu rəngli balaca sumkasını əlindən aldı, noxudu rəngli gen drap paltosunu tutdu.

– Çıxart, çıxart, qızım! İndi keç otur, gəldiyin yollara qurban olum...

Səkinənin mehriban və məhəbbətlə dolu rəftarı Mayanın ürəyində bu vaxta qədər tanış olmayan şirin duyğular oyatdı. İlk dəfə qayınanası ilə necə görüşəcəyi haqqında neçə gündən bəri çəkdiyi iztirablar birdən xoş bir sevincə çevrildi. Min bir həvəslə dolu ürəyində yeni, şad hisslərlə çırpındı, bu evdə səadət tapacağı haqqındakı xəyalları şübhələrdən təmizlənərək bir həqiqət olub üzünə güldü. Şirin və cazibədar təbəssümlə qayınatasına baxdı".

Gəlinin elçisiz, nişansız gəlişindən narazı olsa da, "ürəyində bunu yüngüllük hesab edib belə evlənmənin gələcəyinə inanmasa da" "Mayanın xoş və təmiz təbəssümü qarşısında ürəyi yumşaldı, üzü mərhəmət gülüşləri ilə işıqlandı, gəlini alnından öpüb təbrik etdi, yana çəkildi" (2, s. 45-46).

Səkinə oxucunun gözləri qarşısında nümunəvi qayınana obrazı olaraq canlanır. Qadın istər ərinin, istərsə də sonralar oğlu Qaraşın Mayaya qarşı münasibətlərindən mütəəssir olaraq daim

onun müdafiəsində durur. Səkinə əslində haqlı-haqsız Mayanın tərəfini tutmur. Maya həqiqətən belə bir müdafiəyə layiq gəlindir. Ailədə baş verən anlaşılmazlıqların ağrı-acısını çəkir. Səkinə ərindən də, oğlundan da fərqli olaraq onu başa düşür və gəlininə kömək edir.

Gəlin və qayınananın mehriban dolanması həmişə arzu olunmuşdur. Bu qadınların arasındakı münasibətlərdə tarazlığın saxlanması kişidən (o biri üçün övlad, digərindən ötrü ərdir) böyük məharət istəyir. Tərəflərdən hər hansı birini müdafiə etmək digərində əsəbilik yaradır. Gəlinlər də unutmamalıdırlar: illər keçəcək, onlar da yaşa dolacaq, qız köçürəcək, gəlin gətirəcəklər.

**Problemin aktuallığı.** Tədqiqat ona görə aktualdır ki, ailə pedaqogikasının zəruri məsələlərindən birinin üzərində dayanılır.

**Problemin yeniliyi.** Qayınana və gəlinin timsalında ailədə davranış qaydaları diqqət mərkəzinə gətirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalə ailə pedaqogikası sahəsində araşdırmalar aparan gənc tədqiqatçılar, doktorant və dissertantlar üçün faydalı olacaqdır.

**Ədəbiyyat:**

1. A.N. Abbasov. Milli əxlaq və ailə etikası: ali təhsil müəssisələrinin magistratura səviyyəsi üçün dərslik. Bakı: Mütərcim, 2015, 324 s.

2. M. İbrahimov. Böyük dayaq (roman). Bakı, 1987, 583 s.

**Rəyçilər**: *ped.ü.elm. dok., prof.* **F.B. Sadıqov**,
*ped.ü.elm.dok., prof.* **H.H. Əhmədov**
**E-mail**: a.abbasov@arti.edu.az

**Redaksiyaya daxil olub**: 08.10.2019